**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№371/4** **23 dekabr 2024-cü il**

**Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 10.3-cü "IFAC, EFAA və digər beynəlxalq peşəkar qurumların yeniliklərinin öyrənilməsi, tərcümə edilməsi və təşviqi" bəndinin icrası ilə əlaqədar 2024-cü ilin yanvar-noyabr ayları üzrə görülmüş işlər barədə hesabata dair**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin maliyyə nəzarəti, o cümlədən müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə bağlı tövsiyələrini rəhbər tutaraq, "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunundan, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası"ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 10.3-cü "IFAC, EFAA və digər beynəlxalq peşəkar qurumların yeniliklərinin öyrənilməsi, tərcümə edilməsi və təşviqi" bəndinin icrası ilə əlaqədar görülmüş işlər barədə hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 10.3-cü "IFAC, EFAA və digər beynəlxalq peşəkar qurumların yeniliklərinin öyrənilməsi, tərcümə edilməsi və təşviqi" bəndinin icrası ilə əlaqədar 2024-cü ilin yanvar-noyabr ayları üzrə görülmüş işlər barədə hesabat nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, IFAC, EFAA və digər beynəlxalq peşəkar qurumların audit və hesabatlılığa dair məlumatlarının, bu sahəyə dair peşə yeniliklərinin öyrənilməsi, tətbiqi, təbliği və təşviqi ilə bağlı işlərin müntəzəm görülməsini təmin etsin.
3. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**